Based on the above, in a final part of work the author of the thesis the research results can be summarized in the by conclusions and offers were put forward in scientific and theoretical importance received as a result of the conducted research are given.

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**SEVİNC ƏDALƏT qızı CABBAROVA**

# NAXCIVAN MUXTAR RESPUBLİKASINDA ƏMƏK POTENSİALININ FORMALAŞMASI VƏ İSTİFADƏSİ

**İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2015**

Dissertasiya işi AMEA İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Rəna Polad qızı Sultanova**
iqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Ağarza Aağahəsən oğlu Rüstəmov**
iqtisad üzrə elmlər doktoru, professor

**Ceyhun İlham oğlu Mahmudov**
iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Əmək Ehtiyatlarından istifadə və kəndin sosial infrastrukturu" şöbəsi

Müdafiə 27 iyun 2015-ci ildə saat ___da AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA, Naxçıvan Bölməsi,əsas bina, akt zalı.

Dissertasiya işi ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» may 2015-ci il tarixdə göndərilmişdir.

**D.01.211 Dissertasiya Şurasının**
**elmi katibi:** **dosent E.A.Şixəliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, bütövlükdə, iqtisadiyyatın inkişafının davamlılığını təmin etməyə şərait yaratmışdır. Ölkə iqtisadiyyatında islahatların aparılması, öz növbəsində, sahibkarlıq fəaliyyətinin, xüsusilə də kiçik biznesin genişlənməsinə imkan vermişdir. Bununla əlaqədar olaraq Azərbaycan regionlarında mövcud əmək potensialından səmərəli istifadə zəruri hesab olunur.

Ölkə regionlarının, o cümlədən Naxçıvan iqtisadi rayonunun davamlı və tarazlı inkişafının təmin edilməsi məqsədilə onlar arasındakı fərqlərin aradan qaldırılması, mövcud potensialdan səmərəli istifadə və əhalinin maddi rifahının yüksəldilməsi vacibdir.

"Azərbaycan regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq regionun sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikasının makroiqtisadi göstəricilərinin təhlili göstərir ki, ötən beş ildə Ümumi Daxili Məhsulun real həcmi 2,9 dəfə artaraq 2 milyard 338 milyon manata çatmış, hər bir nəfərə düşən nominal həcmi 2,7 dəfə artaraq 5 min 423 manat təşkil etmişdir. Muxtar Respublikanın sənayesində 5,2 dəfə, kənd təsərrüfatında isə 2,2 dəfə artıma nail olunmuşdur[1].

Bu istiqamətdə həmçinin "Azərbaycan Respublikasında Məşğulluq Strategiyası (2006-2015-ci illər)" Dövlət Proqramının uğurla həyata keçirilməsini də qeyd etmək lazımdır. Bu strategiya məşğulluq və əmək bazarı sahəsində həyata keçirilən siyasətin iqtisadi islahatlar çərçivəsində təkmilləşdirilməsini, yeni iş yerlərinin açılması üçün institusional mühitin yaradılmasının stimullaşdırılmasına istiqamətlənmiş prioritetlərin müəyyən edilməsini nəzərdə tutur. Bu istiqamətdə Naxçıvan iqtisadi rayonunda nəzərəçarpan nəticələr əldə olunmuşdur. Lakin buna baxmayaraq, regionda yaradılmış ictimai istehsal strukturu, demoqrafik vəziyyət, istehsal mədəniyyətinin səviyyəsi, kadrların hazırlıq dərəcəsi daha da yaxşılaşdırılmalıdır.

Hazırda ölkədə regional inkişafdakı qeyri-bərabərliyin artması, regionların inkişaf səviyyəsində böyük fərqlərin yaranması iqtisadiyyatın struktur cəhətdən yenidən qurulmasının təmin edilməsinin həllini, istehsal

[1] Naxçıvan Muxtar Respublikasının Normativ hüquqi aktlar toplusu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin nəşri, 2014, s. 78.

və resurs potensialından istifadənin səmərəliliyinin yüksəldilməsini, regionların sosial-iqtisadi inkişafının başlanğıc şərtlərinin bərabərləşdirilməsini vacib edir. Buna görə də kadrların hazırlanma keyfiyyətinə, müasir tələblərə uyğun olaraq onların ixtisaslarının yüksəldilməsinə yeni tələblər irəli sürülür, innovasiyaların insan kapitalına yönəldilməsi və bununla da bütövlükdə, region üzrə əmək potensialından səmərəli istifadənin təmin edilməsi vacib hesab olunur.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycan üzrə və həmçinin regional səviyyəsində iqtisadi-demoqrafik problemlərin müxtəlif aspektləri Azərbaycanın iqtisadçı alimlərindən: Z.Ə.Səmədzadənin, A.A.Nadirovun, Ş.M.Muradovun, A.K.Ələsgərovun, M.M.Allahverdiyevin, A.X.Nuriyevin, T.A.Qulıyevin, R.K.İskəndərovun, A.A.Rüstəmovun, R.P.Sultanovanın və başqalarının əsərlərində öz əksini tapmışdır.

Əmək potensialının formalaşmasının, idarə edilməsinin, ondan səmərəli istifadə edilməsinin müxtəlif problemləri xarici alimlərdən: A.İ.Boykonun, Q.N.Boyarskinin, S.İ.Brukun, A.E.Kotlyarın, V.Q.Kostakovun, A.S.Pankratovun, A.S.Porterin, T.V.Tsixanın, Y.Ostapenkonun, və başqalarının tədqiqat obyekti olmuşdur.

Lakin Azərbaycan və xarici alimlərin elmi tədqiqatlarının əhəmiyyətini və dəyərini azaltmadan, qeyd etmək lazımdır ki, bu pobleme tədqiqatda göstərilən aspektlərdə baxılmamış və xüsusi tədqiqat obyekti kimi qiymətləndirilməmişdir.

Beləliklə, dissertasiya işinin mövzusunun seçilməsi onun lazımi səviyyədə işlənilməməsi və mövzunun aktuallığı ilə şərtləndirilir.

**Tədqiqatın obyektini** Naxçıvan iqtisadi rayonunun əmək potensialı təşkil edir.

**Tədqiqatın predmetini** əmək potensialının formalaşması və istifadəsinin təhlili təşkil edir.

**Dissertasiya işinin məqsədi** Naxçıvan iqtisadi rayonunun əmək potensialının formalaşması və istifadəsinin təmin edilməsinə yönəlmiş metodik prinsiplərin, praktiki təkliflərin, tövsiyələrin tədqiqi və hazırlanmasından ibarətdir.

Bu məqsədin həyata keçirilməsi üçün tədqiqat işinin qarşısında aşağıdakı **vəzifələr** qoyulmuş və məntiqi ardıcıllıqla həll edilmişdir:

• "iş qüvvəsi", "əmək ehtiyatları" və s. kateqoriyalarından fərqli olan "əmək potensialı" anlayışının terminoloji apparatının öyrənilməsi və bunun əsasında mahiyyətinin və mənasının təyin olunması;

• regionda baş verən demoqrafik dəyişikliklərin xüsusiyyətlərinin və onların əmək potensialının formalaşmasına təsirinin öyrənilməsi;

• iqtisadi rayonun əmək fəallığına sosial-iqtisadi inkişafın təsir səviyyəsinin öyrənilməsi;

• Naxçıvan Muxtar Respublikasının məşğulluq səviyyəsinin təhlili və iqtisadi qiymətləndirilməsini aparmaq;

• əmək prosesində innovasiyaların idarə olunmasında yeni üsulların müəyyənləşdirilməsi;

• regionun iqtisadiyyatının klasterləşməsini təmin etmək və bununla da əmək potensialından səmərəli istifadəni təmin etmək üçün xarici ölkələrin təcrübələrinin ümümiləşdirilməsi nəticəsində, tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** iqtisad elminin klassiklərinin, Azərbaycanın və xarici ölkələrin müasir görkəmli alimlərinin əmək potensialının formalaşması və istifadəsi, demoqrafik məsələləri problemləri haqqında nəzəriyyələri, elmi tədqiqatları, xarici və yerli nəzəri-praktiki konfrans materialları, Azərbaycan Respublikasının qanunlarına, hökümətin qərarlarına və normativ sənədlərə istinad edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin məlumatları və s. təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi** olaraq ilk dəfə Naxçıvan Muxtar Respublikasında əmək potensialının formalaşması və istifadəsi istiqamətində nəzəri və praktiki məsələlərin kompleks şəkildə həllinə cəhd edilmişdir. Tədqiqat prosesində müəllif tərəfindən əldə edilmiş konkret nəzəri və praktiki nəticələr işin elmi yeniliyini təyin edərək müdafiəyə təqdim olunan əsas müddəaları aşağıdakı kimi müəyyənləşdirir:

- "Əmək potensialı" anlayışına dair ölkə üzrə və xarici yanaşmaların təhlili əsasında onun "iş qüvvəsi", "əmək ehtiyatları" və b. kateqoriyalarla müqayisədə fərqi və ümumiliyi aşkara çıxarılmış və bunun əsasında onun mahiyyəti və əhəmiyyəti müəyyən edilmişdir;
- regionda baş verən demoqrafik dəyişikliklərin xüsusiyyətləri və onların əmək potensialının formalaşmasına təsiri tədqiq edilmişdir;
- sosial-iqtisadi inkişafın iqtisadi rayonun əmək fəallığına təsir etmə dərəcəsi göstərilmişdir;
- Muxtar Respublikada məşğulluğun inkişafının vəziyyəti təhlil edilmiş və onun əsasında iqtisadi qiymətləndirilməsi aparılmışdır;

- inkişaf etmiş ölkələrin təcrübəsinin ümumiləşdirilməsi əsasında əmək potensialından səmərəli istifadə edilməsi üzrə tövsiyələr verilmişdir.

**İşin təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, onun əsas nəzəri müddəaları, nəticələri və irəli sürülən təkliflər, tövsiyələr mövcud əmək potensialından səmərəli istifadə edilməsinə yönəlmiş Dövlət Proqramların hazırlanmasında və ali məktəblərin "İqtisadi nəzəriyyə", "Əməyin iqtisadiyyatı", "Demoqrafiya" kimi fənlərin tədris proseslərində istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi**. Dissertasiyanın əsas müddəaları və işdə irəli sürülən nəzəri və əməli təkliflər haqqında Проблемы формирования инновационного сельскохозяйственного производства» (Баку, 2010), «Проблемы и перспективы инновационного развития экономики» (Киев-Симферополь-Алушта, 2012) mövzusunda keçirilmiş Beynəlxalq elmi - praktiki konfranslarda və "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya", (Bakı 2014) Beynəlxalq konqresində məruzə edilmişdir. Dissertasiya işinin nəticələri istifadə edilmək üçün təklif və tövsiyələr şəklində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinə təqdim edilmiş və tətbiq üçün qəbul edilmişdir (arayış №11/49, 09 aprel 2015-ci il). Bununla yanaşı tədqiqatın nəticələri nüfuzlu nəşriyyatlarda və jurnallarda çap edilmiş, 3 konfrans materialı və 7 məqalədə öz əksini tapmışdır

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən, ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyada 21 cədvəl, 2 sxem əks olunmuşdur.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası göstərilir, habelə işin elmi yenilikləri, təcrübəvi əhəmiyyəti, aprobasiyası və tətbiqi şərh edilir.

Dissertasiyanın **"Əmək potensialının formalaşmasının və inkişafının nəzəri-metodoloji əsasları"** adlanan birinci fəslində əmək potensialının formalaşması və inkişaf amilləri, həmcinin demoqrafik dəyişikliklərin əmək potensialından səmərəli istifadəsinə təsiri təhlil edilmişdir.

Cəmiyyətin sosial-iqtisadi həyat səviyyəsi əhalinin yenidən artım prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir. Eyni zamanda demoqrafik proseslərin səviyyəsində baş verən dəyişikliklər və əhalinin strukturu içtimai məhsulun təkrar istehsalına bilavasitə təsir göstərir.

Cəmiyyətin iqtisadi-demokrafik inkişaf problemləri, onların tədqiqi və həlli əhali problemlərinin mühüm sırasında durur. Say dinamikasının təhlili, yaş-cins tərkibi və əmək resuslarının ölkə ərazisində bölünməsi təhlilin zəruriliyi bununla izah olunur. Sosial iqtisadi şəraitin dəyişilməsi, təsərrüfat əlaqələrinin qırılması, istehsalın azalması, əhalinin mühüm kateqoriyalarının həyat səviyyəsinin aşağı düşməsi, həyat səviyyəsinin reqional diferinsasiyasının artması miqrasiya potensialının struktur dəyişiklərində və miqrasiya proseslərinin xarakterində öz əksini tapır. Miqrasiya potensialının formalaşması və inkişafinda aşağıdaki amillər mühüm rol oynamağa başladı, istehsalın azalması hesabına əmək resurslarının azad olunması və bunun nəticəsi kimi işzizlərin coxalması.

Buna baxmayaraq, Muxtar Respublikasında həyata keçirilən iqtisadi islahatlar hesabına əhalinin rifah halı əhəmiyyətli dərəcədə yüksəlmiş və miqrasiya prosesi azalmışdır.

Beləliklə, əhalinin siyahiya alinması təhlili göstərir ki, 2009-cı ildə Naxçivan Muxtar Respublikasında 398323 nəfər yaşayırdı, onlardan 198267 nəfər kişi və 200056 nəfər qadın təşkil edirdi. Muxtar Respublikasının kənd əhalisi 282835 nəfər, şəhər əhalisi isə 115484 nəfər təşkil etmişdir, başqa sözlə 167347 nəfər çoxluq təşkil edirdi. 2012-ci ildə isə Muxtar Respublikada 427, 2 min nəfər yaşayırdı[1]. Yaş qruplarına görə əhalinin sayı təhlil olunmuş, və müəyyən olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında əhalinin əksər hissəsi gənclər və orta yaşlı insanlardır. Respublikanın gələcək əmək potensialının formalaşması üçün bu müsbət hal kimi dəyərləndirilir.

Eyni zamanda qeyd etmək lazımdır ki, əhalinin ən yüksək sıxlığı Şərur rayonunun və Naxçıvan şəhərinin payına düşür, başqa sözlə Muxtar Respublikada əhalinin sıxlığı qeyri bərabər paylanmışdır.

Bu fəsildə həmçinin "əmək potensialı" əmsalının terminoloji aparatı təhlil edilmiş, müxtəlif alimlərin düşüncələri ümumiləşdirilmiş və öyrənilmişdir. Müəllif belə bir fikirlə razılaşır ki, cəmiyyətin əmək potensialı dedikdə əhalinin ümumi sayı ilə müəyyən olunan, öz fiziki və mənəvi keyfiyyətlərinə görə içtimai istehsalda iştirak etmə qabiliyyətinə malik olan, onun yaş-cins strukturu, təhsil səviyyəsi və məşğulluğun sahə-ərazi və peşə-kvalifikasiya strukturunun optimallaşdırılma imkanı verən əmək resursları düşünülür. Belə ki, insan faktoru əmək və içtimai fəaliyyət prosesində meydana çıxan şəxsiyyətin sosial və psixoloji keyfiyyətindən

[1] Azərbaycan regionları. Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2013, s.61.

geniş mənada asılıdır. Əmək potensialı insan faktorunun inkişaf səviyyəsindən və keyfiyyət xususiyyətlərindən asılıdır[1].

Müəllifin fikirincə, əmək potensialı inteqral xarakteristikadır. Bir sıra tədqiqatçıların fikrinə görə şəxsi faktorun təminatı hər bir cəmiyyətin imkanlarına görə müxtəlifdir. Hər hansı bir iqtisadi vahidin əmək potensialı əhali sayının, insan həyatı boyunca istehsal ehtiyacları üçün sərf edilən vaxt miqdarının, və tənzimlənmiş iş günü ərizində əmək fəaliyyətinin intensivliyinin inteqral tərkibi ilə müəyyən olunur.

Müəllifin fikirincə, müasir şəraitdə əməyin məzmununun dəyişilməsi, iş qüvvəsinə tələblərin kəskinləşməsi, lazımlı biliklərin, təcrübənin və bacarıqların çatışmamazlığı əmək qabiliyyəti anlayışına müəyyən düzəlişlər edir.

Beləliklə, əhalinin say dinamikasını və onun cins tərkibini təhlil edərkən, belə nəticəyə gəlirik ki, 1985-2011-ci illər ərzində bütövlikdə region üzrə əhalinin sayının coxalması tendensiyası aşkarlanır və əhalinin sayı 140,3 min nəfər artmışdır, o cümlədən kişilər 71,7 min nəfər, qadınlar isə 68,6 nəfər artmışdır[2]. Sosial faktor regionda əhalinin sayının artmasında mühüm rol oynayır. Son illərdə aparılan iqtisadi islahatların nəticəsidir ki, iqtisadiyyatın bütün sahələrində müsbət nəticələr əldə olunmuş və bu öz növbəsinda əhalinin rifah halının yüksəlməsinə səbəb olmuşdur.

Keçmişdə baş verən əhalinin təkrar istehsalının dəyişikliklərinin əsas istiqamətlərinin dərk olunması və bunun nəticəsində gələcək demoqrafik proseslərin inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi demoqrafik vəziyyətinin kəskin dəyişilməsinin mahiyyətini öyrəniməyə imkan verir. Bir tərəfdən demoqrafik siyasət cəmiyyətin sosial iqtisadi siyasətinin tərkib hissəsidir, digər tərəfdən isə məşğulluğun tənzimlənməsi, əmək şərtlərinin, həyat səviyyəsinin, əhalinin sosial təminatı ilə yanaşı əhali siyasətinin tərkib hissəsi hesab oluna bilər.

Tədqiqat nəticəsində müəyyən olunub ki, demoqrafik siyasət ilk növbədə cəmiyyətin doğum səviyəsinin artmasına yönəldilir.

Demoqrafik siyasət hərtərəfli tədbirlər məcmusudur, bunlar üç qrupa bölünür: iqtisadi, inzibati-qanunu və tərbiyyəvi-propaqandik tədbirlər. Tədbirlərin müxtəlif istiqamətlərini müyyənləşdirmək olar, məsələn, ölüm və xəstəliklərin səviyyəsinin azaldılması, təbii artımın coxaldılıb azaldılması, miqrasiya səviyyəsinin dəyişilməsi. Qeyd etmək lazımdır ki,

---

[1] Панкратов А.С. Управление воспроизводством трудового потенциала. М.: Изд-во МГУ, 1988, с. 56.

[2] Naxçıvan Muxtar Respublikasının statistik göstəriciləri. Naxçıvan: Əcəmi, 2012, 36 s.

demoqrafik siyasətin müvəffəqiyyətli həyata keçirilməsi üçün onun hədəflərinin təyini olunması, həmçinin əhalinin demoqrafik göstəricilərinin ölçülərinin müyyənləşdirilməsi əhəmiyyətli hesab olunur. Bu göstəriciləri həm ölkənin bütün əhalisi üçün, həm də ayrı kişilər və qadınlar üçün hesablamaq olar. Belə tədqiqatlar 1996-2013-cü il ərzində bütövlükdə Naxçıvan Muxtar respublikası üzrə ana ölüm faizinin azalmasını və 2013-cü ildə sıfır səviyyəsinə çatması tendensiyasını göstərir[1].

Hal-hazırda Naxçıvan Muxtar respublikasında 329 xəstəxana, 87 qadın konsultasiyası, uşaq poliklinikası və ambulatoriya, 2 stomatoloji poliklinika və 7 təcili yardımınstansiyası fəaliyyət göstərir. 2012-ci ildə 9182 insana ambulator və təcili yardım xidmətləri göstərilmişdir ki, bu isə 1990-cı ilnən müqayisədə 4,7 min nəfər artmışdır.

Əhalinin sağlamlıq səviyyəsinin artırılması üçün 2012-ci ildə Naxçıvan Muxtar respublikasında 948 idman obyekti tikilmişdir ki, bu da 1995-ci ilnən müqayisədə 1,7 dəfə artmışdır[2].

Naxçıvan iqtisadi rayonunun 2005-2013-cu illərdə baş verən demoqrafik dəyişikliklər göstərir ki, əhali sayında 53,2 min nəfər, təbii artımda 3413nəfər artım, ölum sayında isə 101 nəfər, həmçinin bir yaşa qədər uşaqlar arasında 21 nəfər azalma müşaidə olunur.

**Cədvəl 1**

**2005-2012-ci illər ərzində Naxçıvan iqtisadi regionu üzrə demoqrafik göstəricilər**

| | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Əhalinin sayı (ilin sonuna), min nəfər | 382,1 | 397,3 | 402,4 | 410,1 | 418,5 | 427,2 | 435,3 |
| Təbii artım | 4239 | 5555 | 5743 | 8072 | 8379 | 8519 | 7762 |
| Doğum sayı | 6350 | 7702 | 7852 | 10116 | 10404 | 10525 | 9763 |
| Ölüm sayı | 2111 | 2147 | 2109 | 2044 | 2025 | 2006 | 2001 |
| həmçinin:bir yaşa qədər uşaqlar | 30 | 18 | 15 | 13 | 10 | 10 | 9 |
| Nigahlar | 3727 | 3800 | 3445 | 3397 | 3435 | 3458 | 3512 |
| Boşanmalar | 236 | 261 | 305 | 333 | 324 | 324 | 314 |

Qeyd: cədvəl Azərbaycan regionları 2013,ARDSK, səh. 65 mənbə əsasında müəllif tərəfindən təşkil edilmişdir.

[1] Azərbaycan regionları. Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2013, s. 54.

[2] Azərbaycan regionları. Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2013, s. 64.

Belə, keçirilmiş tədqiqatlar göstərir ki respublikada iqtisadi islahatların keçirilməsi nəticəsində Naxçıvan iqtisadi regionunda son illər ərzində əhalinin sosial həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib. Buna görə bu gün əhalinin, doğum sayının və əvvəlki illərlə müqayisədə ölüm faizinin azaldılmasının təbii artımının artımı müşahidə olunur. (cəd. 1)

Bu fəsildə deyilənlərin nəticəsi kimi qeyd etmək olar ki, son 15-20 il ərzində demoqrafik prosesdə olan müsbət dəyişikliklər, əhalinin və əməyin yaş və cinsiyyət tərkibi üzrə formalaşmasına və əmək strukturunun dəyişilməsinə güclü təsir ediblər.

İşin **"Naxçıvan iqtisadi rayonunda əmək potensialından istifadə vəziyyətinin təhlili və iqtisadi qiymətləndirilməsi**" adlanan ikinci fəslində sosial-iqtisadi inkişafın əhalinin əmək fəallığına təsir məsələləri və regionda məşğulluqun inkişaf vəziyyətindən bəhs edilir.

Bu fəsildə statistik materiallara əsaslanaraq,sistemli müqayisə, riyazi-statistik təhlil, analitik ümumiləşdirmə üsulları istifadə etməklə, əmək potensialının dinamikası və strukturunda baş verən dəyişikliklər öyrənilib, iqtisadiyyatın sahələrinə görə və regionun inzibati əraziləri üzrə əmək potensialının bölünməsinin mövcud vəziyyəti təhlil olunub.

"2009-2013 Azərbaycan Respublikasının regionlarının ictimai cəhətdən iqtisadi inkişafı üzrə Dövlət proqramı"nın həyata keçirilməsi nəticəsində nəzərəçarpan nəticələr alınmışdır. Belə ki, Muxtar respublikada 2013-cü ildə 2 milyard 339 milyon manat ÜDM istehsal edilmişdir, və bu əvvəlki illə müqayisədə 10,3% artmışdır [1] . "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın hatə etdiyi beş ildə ÜDM-un real həcmi 2,9 dəfə artaraq hər bir nəfərə düşən nominal həcmi 2,7 dəfə artaraq 5 min 432 manat təşkil etmişdir. Muxtar Respublikanın sənayesində 5,2 dəfə, kənd təsərrüfatında isə 2,2 dəfə artıma nail olunmuşdur.

Qeyd etmək lazımdır ki, 2012-ci ildə əhalinin sayı ötən ilə nisbətən 2,1% artmış, 2013-cü ildə 435 min nəfər təşkil etmişdir[2].

2013-cü ildə sənaye məhsulunun həcmində 6,3%, kənd təsərrüfatı məhsulunda 6,9%, nəqliyyat sektorun yük daşınmalarında 9,5%, xarici ticarət dövriyəsində 13,5%, həmçinin ixracın həcmində 7,7% artım müşaidə

---

[1] 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: Əcəmi, 2014, s.4.

[2] 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: Əcəmi, 2014, s.27.

olunmuşdur. Əhalinin gəlirləri 7%, bir işləyənə hesablanan orta aylıq əmək haqqı isə 4,9% artmışdır.

2013-cü ildə Naxçıvan iqtisadi regionunda 862,9 milyon manat məbləğində məhsul istehsal edilmiş və 2012-ci illə müqayisədə bu göstərici 6,3% artmışdır. Sənaye istehsalında 95,6% məhsulların payına, 4,4% isə xidmətlərin payına düşür. Vurğulamaq lazımdır ki, istehsalın 92,6% özəl sektorun payına düşür.

Tədqiq edilmə dövrü ərzində, 2005-2012 illərdə muxtar respublikada qüvvədə olan müəssisələrin sayı 39, sənaye məhsulunun həcmi 58285 manat, işçilərin orta sayı12264 nəfər, orta əmək haqqı isə 239,1 manat artdmışdır.2013-cü ildə muxtar respublikada 592 müxtəlif təyinatlı obyekt tikilmiş və istismara verilmişdi, onlardan 157 obyekt yenidən yaradılmış və əsaslı təmir edilmişdır.

Ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə 2008-ci ildə qəbul olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminata dair Dövlət Proqramı" əhalinin ehtiyaclarının təmin olunmasına yönəldilmiş kompleks tədbirlərindən biri sayıla bilər. Dövlət Proqramının icrası nəticəsində kənd təsərrüfatının məhsulu 2013-cü ildə 2008-ci illə müqayisədə 2,4 dəfə coxalmış və 223 milyona catmışdır, heyvandarlıq sahəsində 114 mln.163min manat təşkil edib, həmin dövr ücün 91,9% artmışdır.

Əmək potensialının əsasən kənd yaşayış məntəqələrində cəmləşməsi, əlverişli iqlim və torpaq şəraiti tarixən formalaşmış, məşğulluq ənənələrinin mövcudluğu muxtar respublikada əkinçiliyin üstün inkişafını təmin etmiş, əkin sahələrinin həcmi artırılmış, 2013-cü ilin məhsulu üçün muxtar respublikada 60,127 min hektar sahədə əkin aparılmışdır.

Qeyd etmək lazımdır ki, “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramı” icrası nəticəsində 2013-cü ildə meyvələrin istehsalı 3%, tərəvəz istehsalı isə 1% artmışdır.

Tədqiqatlar göstərdi ki, son 2 il ərzində kənd və balıqçı təsərrüfatlarında həm də Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının başqa sahələrində, müsbət dəyişikliklər müşaidə olunur. Muxtar Respublikada kənd təsərrüfatı və ərzaq məhsulunun 332-dən çox növü müxtəlif müəssisələr tərəfindən istehsal olunur. Bunların müsbət cəhəti odur ki, artıq muxtar respublikanın əhalisinin ehtiyacları 106-sı ərzaq və 226-sı qeyri-ərzaq malları olmaqla yerli istehsalın hesabına təmin olunur. Bu sahələrin məhsulları daxili bazarın nizamnaməsində xüsusi rola

malikdir, qiymətlərin qalxmasına mane olur və əhalinin ehtiyaclarının tam təmin olunmasına şərait yaradır. Həmçinin, bu sahələrin inkişafı yeni iş yerlərini açmağa və Naxçıvan Muxtar Respublikasında məşğulluq səviyyəsini yüksəltməyə icazə verir. Vurğulamaq lazımdır ki, sənaye məhsulunun böyük hissəsi Naxçıvan sənaye qovşağında cəmlənmişdir. Sosial-iqtisadi inkişaf səviyyəsinə görə vaxtilə uzun müddət regionlar arasında yaranmış böyük fərqlər keçmişdən qalmış çox ağır miras olaraq təbii ki, aradan qaldırmaq üçün xeyli vaxt və məqsədyönlü fəaliyyət tələb edir. Müəllifin fikincə, bu tədbirlərdən biri Naxçıvan Muxtar Respublikasının müxtəlif rayonlarında müvafiq infrastrukturun yaradılmasıdır. Naxçıvan iqtisadi regionunda münasib nəqliyyat infrastrukturunun yaradılması üzrə işlər aparılır. Avtomobil yollarının salınması, dəmiryol nəqliyyatının fasiləsiz işinin təmin olunması istiqamətində işlər aparılır.

Belə ki, 2009-2013-ci illər ərzində 880 km-dən çox magistral və yerli əhəmiyyətli yollar çəkilmiş və ya əsaslı təmir edilmiş, 44 körpü tikilmişdir. 2013-cü ildə, 2012-ci il ilə müqayisədə Muxtar Respublikada yük daşınmaları 9,5% , sərnişindaşınmalar isə 8,9% artmışdır. Yük və sərnişin daşınmalarından alinan gəlir cəmdə 46 mln.578min manat təşkil etmişdi ki, bu da 2012-ci ilə nisbətən 8,5% artmışdır.

Muxtar Respublikada son illər ərzində iqtisadi sistemin inkişafına və regionun dinamik inkişafının təminatına yönəlmiş məqsədyönlü işlər sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradır. 2013-cü ildə sahibkarlığa yardım göstərmək üçün, Muxtar Respublikada biznes mərkəzi yaradılmışdır və müntəzəm olaraq biznes-forumlar, konfranslar keçirilməsi üçün şərait yaradılmışdır. Hal-hazırda bütövlükdə respublika üzrə 24 hüquqi və 1162 fiziki şəxs öz fəaliyyətini inkişaf etdirir.

Qeyd etmək lazımdır ki, iqtisadi islahatların keçirilməsinin nəticəsində Muxtar Respublikanın əhalisinin maddi rifahı yaxşılaşmış, onun alıcılıq qabiliyyəti yüksəlmişdir. 2013-cü ildə Muxtar Respublikanın istehlak bazarında 289 milyon manatlıq məhsullar realizə olmuş və xidmətlər göstərilmiş və bu 2012 illə müqayisədə 12,7% daha çoxdur. Xidmətlərin göstərilməsinin keyfiyyətini artırılmaq üçün Şahbuz, Şərur, Ordubad və Babək rayonlarında əhaliyə xidmətlərin göstərilməsi məqsədi ilə mərkəzlər tikilmişdir.

Beləliklə, Naxçıvanı regionun sosial-iqtisadi inkişafında müşahidə olunan müvəffəqiyyətlər demoqrafik vəziyyətin yaxşılaşmasına və əhalinin maddi rifahının artırılmasına imkan yaratmışdır.

Aparılan tədqiqatlar göstərir ki, Naxçıvan Muxtar Respublikasında əhalinin yarısından çoxu əməkqabiliyyətli hesab olunur və onlar iqtisadi aktiv insanlardır. Aşağıda göstərilən cədvəldə Naxçıvan Muxtar Respublikasında iqtisadi aktiv əhalinin sayı göstərilmişdir. Keçirilmiş tədqiqatlar göstərdi ki, 2000-2012-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında iqtisadi aktiv əhalinin 47,2 min. nəfər artması müşahidə olunur (müvafiq olaraq, 2000-ci ildə - 173,8; 2012-ci ildə - 221,0).

Tədqiqat göstərirlər ki, Naxçıvan Muxtar Respublikasında son illər ərzində iqtisadi fəaliyyətin müxtəlif növləri üzrə muzdlu işçilərin xüsusi çəkisi artmışdır. Belə ki, artım iqtisadiyyatın kənd təsərrüfatı, emal sənayesi, tikinti, topdan və pərakəndə ticarət, nəqliyyat və rabitə sahələri üzrə müşahidə olunur.

Qeyd etmək lazımdır ki, 2003-1013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasında 57109 yeni iş yeri açılmışdır. Bunlardan 26472 iş yeri yeni müəssisələrin və təşkilatların payına, 13189 mövcud müəssisələrin payına, 16311 iş yeri isə başqa tədbirlər üçün açılan iş yerləridir (müxtəlif yerli və beynəlxalq laihələr, remont işləri və s.). Yeni açılmış iş yerlərindən 22891 və yaxud 40,1% dövlət, 34218 isə, yəni 59,9%özəl sektorun payına düşür.

Məlum olduğu kimi, innovasiyalar, onların istifadəsi əhalinin məşğulluqun struktur səviyyəsinə böyük təsirə malikdir və iş qüvvəsinin təkrar bölünməsi hər zaman diqqət mərkəzindədir. Lakin, əməyin ictimai bölgüsü, işçinin yer dəyişməsindən asılı olan məşğulluq strukturu, sahələr üzrə əmək resursların təkrar bölünməsi istər təsərrüfatın planlı şəkildə idarə olunma zamanı, istərsədə bazar iqtisadiyyatı şəraitində müqayisəli olmuşdur. Bazar iqtisadiyyatı sistemində bu proses daha da dərinləşmiş, idarəolunması çətinləşdirilmişdir.

Bu gün ali və orta texniki tədris məktəblərini bitirən gənclər nəyinki iş yerlərinə təyinat almır, hətta onların tələblərinə və ehtiyaclarına görə işlə təyin olunma sistemi yaradılmayıb.

Qeyd etmək lazımdır ki, ziddiyətlər bununla məhdudlaşmır, onlar daha dərin və ciddi səbəblərə malikdir. Müəllifin fikirincə, onlar aşağıda göstərdiklərimizdən ibarətdir:

- innovasiyalar iqtisadiyyatın bütün sahələrində tətbiq olunmur, iş qüvvəsi qənaətliyi təmin olunmur;

- elmi-texniki tərəqqinin iş qüvvəsinin kəmiyyətinə və keyfiyyətinə təsiri bu göstəricilərin müxtəliftərəfli məzmun və məna xüsusiyyətlərinə malikdir;

- sahələr üzrə istehsalın həcmi, işçilərin sayı, arzu olunan əmək məhsuldarlığının dinamikasının vəziyyəti;

- başqa sahələr üçün iş qüvvəsinin yararlığı;

- bazar sistemi şəraitində iş qüvvəsinin sahədaxili və sahələrarası hərəkətinin nizama salınmasının qeyri-mümkünlüyü;

- iş qüvvəsinin bir sahədən başqa sahəyə keçidi onların təkmilləşdirilməsi üçün böyük maliyyə xərclərini tələb edir;

- işçilər sahələrini və peşələrini dəyişərkən müxtəlif mövqeləri dəyişilir (güzəştlərin itirilməsi, yeni yerə uyğunlaşma çətinlikləri və s.);

- elmi-texniki tərəqqinin təsirinə görə iş qüvvəsinin sahə daxili və sahələr arası hərəkətinin əmək bazarının tələblərinə uyğun olunmaması problemi;

- iş qüvvəsinin sahədaxili və sahələrarası bölgüsü üçün konkret bazar mexanizminin olmaması.

İşsizlik iqtisadi, siyasi, demoqrafiq və psixoloji təsirlərə malik olan mürəkkəb və çoxtərəfli ictimai prosesdir. Təəssüf ki, iqtisadi ədəbiyyatda işsizliklə əlaqədar itkilərin təyin olunması və meyarların hazırlanması mövcud deyil.

Buna görə respublikanın regionlarında, həmçinin Naxçıvan Muxtar Respublikasında mövcud olan iqtisadi proseslərinə işsizliyin təsir dərəcəsinin öyrənilməsi üçün xüsusi metodikasının hazırlanması vacib hesab olunur.

Əhalinin işsizlik səviyyəsinin azaldılması və məşğulluğun effektiv təmin olunması problemləri Azərbaycan Respublikasında hər zaman lazımı və vacib problemləri kimi dəyərləndirilmişdir. Bu problemin həlli öz əksini iki Dövlət Proqramlarında (I-ci 2004-2008-ci illər, II-si 2009-2013-cü illər ücün) tapmışdır.

Post-sovet ölkələrində istehsalın bəzi sahələrində bir müddət işlər dayandırılırdı. Ayrı-ayrı sahələrdə iş qüvvəsinə ehtiyacın azaldılması elmi-texniki tərəqqinin inkişafı ilə, yeni sahələr və yeni iş yerlərin açılması ilə bağlı idi.

İş qüvvəsinə ehtiyacın azaldılması iqtisadiyyatın müəyyən dövründə olur, məhsullara ehtiyac azalır və istehsal xərcləri yüksəlir.

Qeyd etmək lazımdır ki, kiçik və orta sahibkarlığın inkişafı bazar münasibətlərin biryolluğunu göstərir və məşğulluq problemlərinin, iqtisadiyyatın inkişafı, əhalinin gəlirlərinin çoxalması, bazarın mallarla təmin olunması və dövlətin ərzaq təhlükəsizliyinin təmin olunması problemlərinin həlli üçün mühüm rol oynayır.

Əmək bazarının təhlili (cədvəl 2) göstərir ki, tədqiqat illərində rəsmi işsizlik statusu olan işsizlərin sayı azalıb, sıfıra çatmışdır. Belə ki, işsizlərin sayı 2005-ci ildə 7904 nəfər olmuşdursa, 2013-ci ildə bu göstərici sıfır səviyyəsinə çatmışdır. Bu vaxt ərzində həm işsizlik səviyyəsinin sıfıra enməsi, həm də əmək haqqlarının yüksəlməsi iqtisadiyyatda mövcud olan nadir hal kimi hesab olunur və belə ki, Naxçıvan özünü hər tərəfli təmin edən iqtisadi rayona çevirilir.

**Cədvəl 2**

**2005-2012-ci il ərzində Naxçıvan Muxtar Respublikasında əmək bazarı**

| | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Orta nominal əmək haqqı, manat | 77,2 | 233,4 | 256,1 | 304,7 | 342,8 | 360,7 | 376,1 |
| İşsiz statusu alanların sayı, nəfər | 7904 | 192 | 55 | 52 | 32 | - | - |

**Qeyd:** cədvəl Azərbaycan regionları 2013,ARDSK, səh. 65 mənbə əsasında müəllif tərəfindən təşkil edilmişdir.

Aparılmış tədqiqatlar göstərir ki, Naxçıvan iqtisadi rayonunda heç də bütün sahibkarlar istehsalla məşğul olmurlar. Təhlil göstərir ki, bu sahədə müəyyən çətinliklər və maneələr mövcuddur. Bu əsasən maliyyə resurslarının çatışmazlığı, texniki və nəqliyyat xərclərinin yüksək olması, istehsal binalarının olmaması və s. ilə bağlıdır.

Razılaşmaq lazımdır ki, bütövlükdə ölkə üzrə və eləcə də Naxçıvan Muxtar Respublikasında savadlı və yüksək səviyyəli kadrların hazırlanmasında müəyyən nöqsanlar peşəkər əmək bazarının formalaşmasına, əhalinin rifah halının, məşğulluq səviyyəsinin və işsizliyinin azaldılmasına neqativ təsir göstərir. Buna görə gənclərin peşə və ixtisaslara yiyələnməsi üçün dövlət tənzimləməsi siyasəti zəruri hesab olunur.

İşin **“Naxçıvan iqtisadi rayonunda əmək potensialının idarəedilməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri”** adlanan

üçüncü fəslində əmək prosesində innovasiyaların idarəolunması və əmək potensialından səmərəli istifadəsində regional klasterlərin rolundan bəhs edilir. Əmək prosesində innovasiyalardan istifadə həyat tərzinin, davranış oriyentasiyası və mədəniyyətin törəməsidir. Bu əmək prosesində elmi yaradıcılığın və müəyyən əhəmiyyətli nəticələrin nailiyyətini nəzərdə tutur. Əmək prosesində innovasiyaların formalaşması üçün müəyyən işçinin çalışdığı təşkilatın, müəssisənin innovasiya potensialı, yeni ideyaların tətbiq etməsi üçün hazır olmağı son dərəcədə əhəmiyyətli hesab olunur.

Hal-hazırda Naxçıvan Muxtar Respublikasının keyfiyyətcə yeni demoqrafik və sosial məhdudiyyətlər şəraitində əmək sahəsində mövcud olan çatışmazlıqlar əmək potensialının idarəolunmasında təsirli sistem yaradılmasını tələb edir.

İqtisadi fəal əhalinin ətraf mühitin innovasiya dəyişikliklərinə qabaqlayıcı uyğunlaşmasını təmin etməsi üçün aşağıdaki təkliflər irəli sürülür: fasiləsiz peşə təhsili sistemi, məzunların peşəkar ixtisaslaşdırılmalarının şəhadətnaməsi, təhsil prosesinin təşkilində dövlət ilə özəl sektorun əməkdaşlığının təmin olunması.

Tədqiqatların göstərdiyi kimi, 2012-ci ildə bütün maliyyə qurumlar hesabına Muxtar Respublikanın iqtisadiyyatına bütövlükdə 982,3 milyon manat məbləqində investisiyalar cəlb edilmiş, bu isə 2011-ci illə müqaisədə 20,4% coxalmışdır. Beləliklə, 2009-2013-cü illər ərzində Naxçıvan MR-nın iqtisadiyyatının inkişafına yönəldilən investisiyalarının illik həcmi 3,4 dəfə yüksəlmiş, 1milyard 38 milyon manat təşkil etmişdir.

Regionun əmək potensialının formalaşması və istifadəsinə təhsil infrastruktutunun yenilənməsi, məktəblərin yeni texnoloji təhcizatlarla təmin olunması əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Təhlil göstərir ki, 2009-2013-ci illər ərzində Muxtar Respublikada 35 yeni orta məktəb açılıb, 10 uşaq bağçasının tikintisi başa vurulub, 40 məktəb və 2 baxça əsaslı təmir olunub[1].

Belə ki, təhsil müəssisələrini bitirən gənclər aşağıda göstərilən problemlərlə rastlaşırlar:

- təhsil sistemi və əmək bazarı arasında qarşılıqlı əlaqəndirmə mexanizminin olmaması;

- məzunların əksəriyyətinin bacarıqlarını tam ölçüdə göstərmək qabiliyyətinin olmaması.

---

[1] Naxçıvan Muxtar Respublikasının Normativ xüquqi aktlar toplusu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin nəşri, 2014, s. 80.

Bazar iqtisadiyyatının inkişafı şəraitində elmi-texniki tərəqqinin yüksəlməsi əmək potensialının kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə tələb artır. Təsadüfi deyil ki, bir sıra ölkələrdə, eləcə də Azərbaycanda iş yerlərinin və işçilərin tarazlaşdırılmaması əmək resurslarının az olması ilə yox, məhz keyfiyyət baxımından uyğun olan işçilərin çatışmaması ilə müşahidə edilir. Bazar şəraitində istehsalın səmərəliliyinin artırılması istehsal edilən məhsulda işçinin qabliyyətinin, biliklərin və əməyə yaradıcılıq münasibətin reallaşdırma səviyyəsi kimi cıxış edir. Başqa sözlə, əmək potensialı insanın qabiliyyətini kəmiyyətcə və keyfiyyətcə xarakterizə edən inteqral bir formadır. Beləliklə, yeniliklərdən istifadə etmə yeni iş yerlərin acılmasına, Naxçıvan Muxtar Respublikasının məşğulluq səviyyəsinin yüksəldilməsinə şərait yaratmışdır.

Regionun məşğulluq strukturunun dəyişikliklərinə yuxarıda göstərilmiş tədbirlərlə yanaşı başqa amillər də təsir edir: çoxquruluşlu iqtisadiyyatın formalaşması, sahə istehsal strukturunun dəyişilməsi, bazar sisteminin inkişafı və s. Potensialın təkrar istehsalına sistemli yanaşma regional strategiyanın hazırlanması və əmək potensialının məqsədyönlü inkişaf proqramları əsasında regionun sosial-iqtisadi inkişaf proqramının bir hissəsi kimi həyata keçirtmək olar. Bu halda hədəflər, məsələlər, prioritetlər, resurslar və reallaşma mexanizmi regionun başqa inkişaf istiqamətləri ilə bağlı olmalıdır. Lakin zərurət yaransa da, Azərbaycanın regionlarında, həmçinin Naxçıvan Muxtar Respublikasında belə strateji sənədlər hazırlanmır.

Əmək potensialının regional məqsədyönlü inkişaf proqramının məqsədi rəqabət qabliyyətli əmək potensialının genişləndirilmiş təkrar istehsalını təmin etməkdir. Əmək potensialının regional məqsədyönlu inkişaf proqramının strukturu əmək potensialının təkrar istehsalının mərhələlərinə uyğun olmalıdır. Hər mərhələ üçün vahid məqsədyönlü proqramının yarımproqramları hazırlanır.

Naxçıvan MR-nın dövlət tərəfindən idarəetmə istiqamətləri əsasən əmək potensialının altı mühüm amilləri olan demoqrafik, sosial, iqtisadi, psixoloji, məkanauyğun və institusional səviyyəsində cəmləşdirilməlidir.

Son illərdə ölkədə klaster-texnoparklar yaradılması əsasında iqtisadiyyatın real sektorunun sənayeləşdirilməsi prosesi sürətləndirilmişdir, buna Azərbaycan Respublikasının Prezidentinin 3 iyun 2009-cu ildə qəbul olunmuş “Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması” fərmanı imkan yaratmışdır. Regionun klaster yaranmasına hazır olmasının müəyyənləşdirilməsi və əsaslandırılması üçün buna

regionun hazırlığını aşkar etmək lazımdır, yəni iqtisadiyyatın əsas fəaliyyət növləri, rəqabətqabiliyyətliyi, region ərazisində olan müəssisələrin birləşmə imkanları öyrənilməlidir. Regional klasterlərin yaradılması imkanının üzə çıxardılması bir sıra əmsalların öyrənilməsi metodikasının köməyi ilə həyata keçirilir. Onlardan biri iqtisadi fəaliyyət növləri üzrə istehsalın lokallaşdırma əmsalıdır. Aparılan tədqiqatlar göstərir ki, emaledici sənayenin payına 2010-ci ildə 87,3% düşürdüsə, 2012-ci ildə bu göstərici 92,8% catmışdır. İqtisadiyyatın inkişafı istehsal müəssisələrinin fəaliyyətinin və yeni istehsal sahələrinin açılışının bərpası nəticəsində nail olunmuşdur. Ən yüksək lokallaşdırma əmsalı qida məhsullarının içkilər və tütün daxil olmaqla istehsal sahəsinin payına düşür, 2012-ci ildə əmsal 1-ə yaxınlaşdı və 0.29 təşkil etmişdir. Kimya, ağac emalı yüngül sənaye sahələr üzrə bu əmsal praktiki olaraq dəyişilməmiş və çox kiçik olmuşdur. Beləliklə, klasterin yeyinti sənayesinin istehsalı səhəsində yaradılması məqsədəuyğun hesab olunur. Kecmişdə Naxçıvan Muxtar Respublikası aqrar-sənaye inkişafı sektoru istiqamətləndirilmişdirsə, indi isə yeyinti sənayesinin istehsalı, tütün məmulatların istehsalı və yüngül sənayesi böyük imkanlar yaradır, bu da regional klaster yaradılması üçün əhəmiyyətli potensiala malikdir. Muxtar Respublikada bu sahədə böyük imkanlar yaradılmış, bir sıra rentabelli xarici ölkələrə ixrac edən müəssisələr yaradılmışdır. Onların sırasında “Ləzzət Qida Sənəye” MMC, “Babək Sirab” ASC, “Badamlı” MMC, “CahanTobaco” və s. Regionun iqtisadi sabitliyinin əsas şərtlərindən biri əhalinin ərzaq məhsulları ilə, məhz yerli istehsalın hesabına təmin olunmasıdır. Bu məqsədə çatmaq üçün 17 sentyabr 2008-ci ildə Ali Məclisin Sədri tərəfindən "2008-2015-ci illərdə əhalinin ərzaqla təminatı üzrə “Dövlət Proqramı” qəbul edilmişdir. Bu gün bu istiqamətində müvəffəqiyyətlər qazanılmışdır, lakin yeyinti məhsullarının istehsalında regional klasterin formalaşması Muxtar Republikanın iqtisadi potensialının yüksəlməsinə, enerjiyə qənaət edən texnologiyalarının daha yaxşı istifadəsinə, mövcud əmək potensialından istifadənin yaxşılaşdırılmasına, bilik səviyyəsinin artmasına və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına imkan yarada bilər.

Hal-hazırda Azərbaycanda klaster siyasəti formalaşma mərhələsini keçir, Qazaxıstanın, Ukraynanın və dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi öyrənilir. Qeyd etmək lazımdır ki, müasir şəraitdə Azərbaycanın sənaye siyasətində müasirləşdirmə kontekstində və iqtisadiyyatın klasterləşdirilməsində mövcud sənaye güclərinin effektiv istifadəsi və

böyuk qurumların və komplekslərin müasirləşdirilməsinin sürətləndirilməsi amilini nəzərə almaq zəruridir.

Regional iqtisadiyyatda klaster yanaşmasının tətbiqi Azərbaycanda kifayət qədər yaxşı öyrənilməmişdir. Bütövlükdə, iqtisadi gücü olan dünya ölkələrin təcrübəsinə əsaslanaraq, nəticəyə gəlmək olar ki, iqtisadiyatın inkişafı üçün bu üsul ən perspektivli hesab olunur. Klaster yanaşması elmi mühitdə böyük marağa səbəb olur, ən yeni elmi iqtisadi nəzəriyyələr üçün aktual olaraq Beynəlxalq Valyuta Fondu və Ümumdünya bankı kimi ən mühüm iqtisadi təşkilatlar tərəfindən praktik tətbiqetmə üçün tövsiyyə edilir.

Zamanın tələblərinə uyğun olaraq əmək potensialının inkişafını təmin etmək məqsədi ilə dövlət tərəfindən həyata keçirilən şəraitdən asılı olan passiv siyasətdən imtina etmək zəruri hesab olunur.

Dövlət tənzimlənməsi siyasətini aşağıdakı qaydada həyata keçirmək məqsədəuyğundur:

- Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xüsusiyyətlərinin təyin edilməsi;

- sahibkarlıq (xüsusi ilə kiçik və orta) üçün kadrların hazırlanması, aqrar sahədə isə kənd təsərrüfatlarının fermer subyektləri üçün;

- gənclərin ixtisaslara və peşələrə yiyələnməsi, faydalı əməyə cəlb edilməsi üçün maddi və mənəvi stimullaşdırma üsulların hazırlanması, yeni peşələr və ixtisaslar üzrə iş yerlərinin açılması.

Yuxarıda göstərilənlər gənclərin məşğulluq məsələlərinin həllində həllelidici rol oynaya bilər və Naxçıvan Muxtar Respublikasında həyat səviyyəsinin yaxşılaşdırılmasına təsir göstərə bilər.

Dissertasiya işinin nəticəsi kimi Naxçıvan Muxtar Respublikasında əmək potensialından istifadəsi üçün növbəti **təkliflər** hazırlanmışdır:

- əmək potensialının formalaşma prosesinin aktivləşməsinə və uyğunlaşdırılmış maarifləndirici siyasətin, həmçının dövlət hakimiyyət orqanları ilə biznes-strukturlarının qarşılıqlı sinxronlaşdırması hesabına əmək potensialından istifadə səviyyəsinin yüksəldilməsinə söykənən ərazinin inkişaf planlaşdırılması zəruri hesab olunur;

- bazar tələblərinin öyrənilməsi məqsədi ilə Muxtar Respublikanın müxtəlif səviyyəli xüsusi və peşəkar maarifləndirmə müəssisələrində marketinq siyasətini hazırlayıb həyata keçirmək;

- ətraf mühitin innovasiya dəyişikliklərinə iqtisadi aktiv əhalinin qabaqlayan uyğunlaşmasını təmin etmək üçün fasiləsiz peşə təhsil sistemi,

məzunların peşəkar ixtisaslaşdırmalarının şəhadətnaməsi, maarifləndirici prosesin təşkilində dövlətin və özəl sektorun əməkdaşlığı kimi tövsiyələr verilə bilər;

- ölkənin regionlarında, həmçinin geri qalan sənaye sahələrində klasterlərin tədbiqi, texnoparkların və xüsusi iqtisadi zonaların yaradılması;
- innovasiyaların stimullaşdırılması və uzunmüddətli şərikli tədqiqat proqramların hazırlanması məqsədi ilə innovativ klasterlərin formalaşdırılması, yüksəktexnoloji sahələr üçün müəssisələrin yaradılması;
- mövcud sənaye güclərindən effektiv istifadəsini təmin etmək və Naxçıvan Muxtar Respublikasında böyük qurumların və komplekslərin müasirləşdirməsinin sürətləndirilməsi məqsədi ilə qida məhsullarının və tütünün istehsalı sahəsində klaster yaratmaq zəruri hesab olunur.

**Dissertasiyanın əsas məzmunu aşağıda dərc olunmuş tezis və məqalələrdə əksini tapmışdır:**


1. Naxçıvan MR-nın əmək potensialının təhlili // Azərbaycanın Elmi-Tədqiqat Kənd Təssarüfatının Iqtisadiyyatı və Təşkili Institutunun Elmi Əsərləri, 2010, s. 93-96.

2. Аспекты оценки и управления человеческого и трудового потенциала / Материалы Международной научно-практической конференции посвященной проблемам формирования инновационного сельскохозяйственного производства, Баку, 2010, стр. 140-141.

3. Əmək potensialının istifadəsində dövlətin rolu // AMEA İqtisadiyyat İnstitutunun Xəbərləri, 2010, s. 69-71.

4.Naxçıvan MR-da əmək potensialının formalaşması və istifadəsi məsələləri // Kənd Təssərufat İnstitutunun Xəbərləri, 2010, № 3 s. 28-31.

5.Формирование и развитие регионального кластера в Нахчыванской Автономной Республике // The HERALD of Ternopil National Economik University, 2013, № 5, p. 76-79.

6.Инновационность в процессе труда в Нахчыванской Автономной Республике / Проблемы и перспективы инновационного развития экономики Материалы XVII международной практической конференции. Киев-Симферополь-Алушта, 2012, стр. 226-229.

7. Проблемы трудовых ресурсов в Нахчыванской АР и их влияние на экономическое развитие / «Qloballaşma prosessində Qafqaz və mərkəzi Asiya” İqtisadiyyat və Beynəlxalq Münasibətlər IV Beynəlxalq konqresinin Materialları. Bakı, 2014, s. 481-484.

8.Управление и оценка трудовых ресурсов в Нахчыванской АР / Международный двуязычный журнал Наука и мир № 7(11), Волгоград 2014, стр. 35-37.

9. Regionun sosial-iqtisadi inkişafının əmək ehtiyatların formalaşmasına təsiri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2014, № 3, s.259-263.

10. Кластерная концепция как инновационный путь развития // Международный двуязычный журнал Наука и мир, Волгоград 2015, № 2(18), стр. 27-30.

**Джаббарова Севиндж Адалят кызы**

# Формирование и использование трудового потенциала в Нахчыванской Автономной Республике

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, выводов и предложений и списка использованной литературы

Во введении обосновывается актуальность выбранной темы, степень изученности проблемы, цель и задачи, объект и предмет исследования, теоретико-методологические основы, научная новизна, теоретическая и практическая значимость.

В первой главе, которая носит название «Теоретико-методологические основы формирования и развития трудового потенциала Нахчыванской Автономной Республики» рассматриваются факторы формирования и развития трудового потенциала, а также влияние демографических факторов на эффективное использование трудового потенциала.

Во второй главе - «Анализ и экономическая оценка состояния использования трудового потенциала в Нахчыванском экономическом районе» исследуются вопросы влияния социально-экономического развития на трудовую активность населения и состояние развития занятости в регионе.

В третьей главе – «Основные направления совершенствования управления трудовым потенциалом в Нахчыванском экономическом районе» рассматривается управление инновациями в процессе труда и региональные кластеры и их роль в эффективном использовании трудового потенциала.

В соответствии с выше сказанным, в заключительной части диссертации обобщены выводы исследования, представлены предложения и рекомендации имеющие определенную научно-теоретическую значимость.

**Sevinj Adalat qizi Jabbarova**

## Formation and use of labor potential in Nakhchivan Autonomous Republic

## SUMMARY

This thesis consists from introduction, three heads, conclusions and offers, the list of the used literature.

In the introduction the actuality of the topic of the dissertation is based, the degree of studied of problem is characterized, a purpose and tasks is put, the scientific of research open up, practical mean full is shown.

In the first chapter «Theoretic-methodological bases of formation of labor potential in Nakhchivan Autonomous Republic» are investigated formation and development of labor potential, has been shown the impact of demographic changes in effective use of labor potential.

In the second chapter called «Economic analysis and assessment of the use of the labor potential in Nakhchivan economic region» the role of socio-economic development in population activity and the influence of development in the employment in the Nakhchivan economic region has been investigated.

The third chapter of this research, "The improvement of the main areas of management of labor potential in Nakhichivan economic region" is called. In this chapter is conditions management of innovation in the labor process a new economic relations, terms of efficient use of labor resources, regional clusters and their role are shown in the Nakhchivan economic region.

Based on the above, in a final part of work the author of the thesis the research results can be summarized in the by conclusions and offers were put forward in scientific and theoretical importance received as a result of the conducted research are given.

Çapa imzalanmışdır: 22.05.2015
Formatı: 60/84, 16/1
Sifariş: 77
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir***

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**SEVİNC ƏDALƏT QIZI CABBAROVA**

# NAXCIVAN MUXTAR RESPUBLİKASINDA ƏMƏK POTENSİALININ FORMALAŞMASI VƏ İSTİFADƏSİ

**İxtisas: 5308.01– Ümumi iqtisadiyyat**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2015**